# Şagirdlər geni dəyişdirilmiş məhsullara "yox" dedilər

Son illər qazandıqları nailiyyətləri ilə Azərbaycan təhsilinə öz töhfələrini verən Bakıdakı Texniki-Humanitar Liseyi bir-birindən maraqlı tədbirlərin, ölkəmizdə həyata keçirilən layihələrin uğurlu iştirakçısı olmaqla öncüllər sırasındadır. Lisey verdiyi təhsilin səviyyəsinə, təlim-tərbiyə işlərinin keyfiyyətli təşkilinə, şagird və məzunlarının yüksək hazırlığına görə də ictimaiyyət arasında böyük nüfuz və rəğbət qazanmış təhsil ocaqlarından biridir. Təsadüfi deyil ki, ölkə başçısı İlham Əliyevin sərəncamı ilə keçirilən "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin iki dəfə qalibi olan lisey təhsilin keyfiyyət səviyyəsinin yüksəldilməsi sahəsində qazandığı nailiyyətlərə, o cümlədən məzunlarının ali məktəblərə qəbulunda ardıcıl olaraq göstərdiyi yüksək nəticələrə görə Nəsimi rayonunda hər il I yeri tutur. Təhsil müəssisəsində şagirdlərin yüksək bilik alması ilə yanaşı, onların hərtərəfli dünyagörüşünə malik gənclər kimi formalaşmasına xidmət edən tədbirlər də diqqətdə saxlanılan məsələlərdəndir.





Elə oktyabrın 5-də Texniki-Humanitar Liseydə "Müasir İnkişaf" İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə "Genetik modifikasiya olunmuş məhsullarla bağlı əhalinin məlumatlandırılması tədbirlərinin təşkili" layihəsi çərçivəsində keçirilən "GMO-ya yox deyək" adlı tədbir də təhsil müəssisəsinin növbəti belə uğurlu işlərindən biri idi.

Tədbirdə liseyin şagird və müəllim kollektivləri ilə yanaşı, Təhsil Nazirliyinin Təhsilin inkişafı proqramları şöbəsinin Pilot layihələrlə iş sektorunun aparıcı məsləhətçisi Afət Süleymanova, "Müasir İnkişaf" İctimai Birliyinin sədri, AMEA-nın əməkdaşı Mübariz Göyüşlü, Azərbaycan Tibb Universitetinin dosenti Rəşid Mahmudov, "Sağlam təhsil - sağlam millət" layihəsinin işçi qrupunun üzvləri, KİV nümayəndələri və b. iştirak edirdilər.

Liseyin direktoru Səidə Zeynalova tədbiri açaraq qonaqları rəhbərlik etdiyi təhsil ocağında görməkdən məmnunluq duyduğunu bildirdi. Pedaqoji kollektiv, aparılan təlim-tədris prosesi, şagirdlərin qazandıqları uğurlar haqqında iştirakçılara ətraflı məlumat verən direktor bu il təhsil müəssisəsini bitirən 112 məzunun respublikanın nüfuzlu ali məktəblərinə qəbul olunduğunu, onlardan 27-nin 500-dən, 11-nin isə 650-dən yuxarı bal topladığını, bir məzunun - Valeh Rəcəbovun Prezident təqaüdünə layiq görüldüyünü diqqətə çatdırdı. Keçirilən bugünkü tədbirin əlamətdar bir günə- Beynəlxalq Müəllimlər Gününə təsadüf etdiyini söyləyən S.Zeynalova bu münasibətlə bütün təhsil işçilərini təbrik etdi, onlara işlərində uğurlar arzuladı.

Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən kompleks tədbirlərdən, Prezident İlham Əliyevin təhsil işçilərinə göstərdiyi diqqət və qayğıdan söz açan Səidə Zeynalova direktoru olduğu Texniki-Humanitar Liseyin ötən il ölkə başçısının sərəncamı ilə əsaslı təmir olunmasının və bu münasibətlə dövlət başçısının liseyə gəlişinin müəllim və şagird kollektivləri üçün xoş bir hadisəyə çevrildiyini dedi.

Təhsil müəssisəsində təşkil olunan "GMO-ya yox deyək" adlı tədbirin əhəmiyyətinə toxunan direktor müxtəlif mövzularda belə maarifləndirici aksiyaların təşkilinin böyüməkdə olan gənc nəslin hərtərəfli dünyagörüşünün formalaşmasında, düzgün şəkildə məlumatlandırılmasında əvəzsiz rol oynadığını bildirdi.

Çıxış üçün söz alan "Müasir İnkişaf" İctimai Birliyinin sədri, AMEA-nın əməkdaşı Mübariz Göyüşlü rəhbərlik etdiyi təşkilatın gördüyü işlərdən, reallaşdırdığı layihələrdən bəhs etdi. Genetik modifikasiya olunmuş məhsullarla (GMO) bağlı əhalinin daha çox maarifləndirilməsinin vacibliyinə diqqət çəkən sədr bu məsələ ilə bağlı ölkə başçısı İlham Əliyev tərəfindən müvafiq sərəncamın imzalandığını dedi, belə məhsulların ölkəmizə gətirilməsinin qarşısının alınmasının zəruriliyindən, dünya ölkələrində də adıçəkilən məsələ ilə əlaqədar bir sıra tədbirlərin həyata keçirilməsindən danışdı.

ATU-nun dosenti Rəşid Mahmudov genetik modifikasiya olunmuş məhsulların insan orqanizmində törətdiyi fəsadlardan söz açdı, bununla bağlı maraqlı faktları iştirakçıların nəzərinə çatdırdı. Alim GMO məhsullarının insan sağlamlığı üçün ciddi təhlükə olduğunu deyərək bu barədə fikir və mülahizələrini tədbir iştirakçıları ilə bölüşdü. Çıxışın sonunda müqəddəs peşə sahibləri olan müəllimləri Beynəlxalq Müəllimlər Günü münasibətilə təbrik etdi.

Çıxış edənlərdən Təhsil Nazirliyinin Təhsilin inkişafı proqramları şöbəsinin Pilot layihələrlə iş sektorunun aparıcı məsləhətçisi Afət Süleymanova son illər ölkəmizdə həyata keçirilən "Sağlam təhsil - sağlam millət" layihəsindən, layihənin gigiyena üzrə ekspertlər qrupunun rəhbəri, ATU-nun uşaq və yeniyetmələr gigiyenası kafedrasının dosenti Şəhla Balayeva uşaqların düzgün qidalanmasının vacibliyindən, layihənin koordinatoru Nigar Şahhüseynbəyova və başqaları belə bir mövzuda keçirilən tədbirin əhəmiyyətindən söz açdılar.

Tədbirdə həmçinin Səhiyyə Nazirliyinin həkim məsləhətçisi Şəfa Həsənlinin və gənc araşdırmaçı Nuran Gündüzoğlunun genetik modifikasiya olunmuş məhsulların ziyanı, 3 D printeri ilə istehsal olunan qidaların yarada biləcəyi problemlər haqqında təqdimatları, şagirdlərin mövzu ilə bağlı hazırladıqları "GMO-ya yox deyək" fikri əks olunan səhnəciklər maraqla qarşılandı.

Sonda liseyin şagirdlərinin Beynəlxalq Müəllimlər Gününə həsr olunmuş musiqili-ədəbi kompozisiyası isə təhsil müəssisəsinin müəllimlərinə əsl bayram sevinci yaşatdı.

**Samirə KƏRİMOVA,**
**Fotolar Rəşad ZİYADOVUNDUR**
*"Azərbaycan müəllimi"*

# Milli azlıqların təhsilində dövlət dilinin tətbiqi məsələləri

Azərbaycan Respublikasının Konstitusiyasında Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili kimi təsbiti, Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli 506 nömrəli və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli 552 nömrəli fərmanları, eləcə də "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu, dil siyasəti sahəsində normativ-hüquqi aktlar, həmçinin bu istiqamətdə görülən digər tədbirlər Azərbaycanda dilçilik sahəsinin hüquqi əsaslarını və icra mexanizmini müəyyən etmişdir. Azərbaycan dilinin azərbaycançılıq məfkurəsi əsasında hərtərəfli inkişafı, gənc nəslin dövlət dilinə sevgi və hörmət ruhunda tərbiyə olunması, ədəbi dilin normalarına ciddi surətdə əməl edilməsi, o cümlədən dilçilik elminin müxtəlif sahələri üzrə yüksək ixtisaslı kadrların hazırlanması dövrün tələbi olaraq qalır.

Yeniləşən təhsilimizin mövqeyinin saxlanması və inkişafı bu yeniliklərı qiymətləndirməyi bacaran, nəzəri və praktik biliklərə yiyələnən, geniş dünyagörüşünə malik olan müasir təfəkkürlü, rəqabət qabiliyyətli və ən başlıcası, dövlət dilini mükəmməl bilən pedaqoji kadrların olmasından asılıdır.

Dilin tədrisi prosesində ən aparıcı vasitə dili təlim etməkdir-düzgün, normalara uyğun şəkildə... Dil dərsləri şagirdi bütövlükdə düzgün düşünməyə və düşündüklərini aydın ifadə etməyə təhrik edir. Milli azlıqların yaşadığı bölgələrdə dilin təlimi prosesində özünü göstərən bəzi çətinliklər vardır ki, tədrisdə bu məqamlar mütləq nəzərə alınmalıdır. Öz ana dillərində (məsələn, ləzgi dilində) düşünən şagirdlərin Azərbaycan dilində fikirlərini ifadə etmək imkanlarının zəif olduğu nəzərə alınaraq bu prosesə yanaşma bir az fərqli olmalıdır. Əvvəla, etnik mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan dili müəllimlərinin dərs prosesində danışığı, bütün izahları birmənalı şəkildə dövlət dilində aparılmalıdır. Bəzən səriştəsiz pedaqoji kadrların olması bu vacib məsələni çox ciddi zərbə altında qoyur. Azərbaycan dilinin fonetik-qrammatik normativinin mənimsənilməsi təmin olunmur, düzgün yazı və nitq vərdişləri formalaşmır və nəticədə şagird Azərbaycan dilində öz fikrini aydın və sərbəst şəkildə ifadə etməkdə çətinlik çəkir.

Milli azlıqların yaşadığı bölgələrdə tədris proqramında Azərbaycan dilinə ayrılan dərs saatlarının miqdarı barədə düşünmək lazımdır. Tədris planında nəzərdə tutulan dərs saatlarının Azərbaycan dilindən alınıb müxtəlif milli azlığın dilinə verilməsi yolverilməzdir. Bu saatlar mütləq kompensasiya olunmalıdır, ya da Azərbaycan dilinin hesabına olmamalıdır. Çünki tədris proqramında nəzərdə tutulan saatların miqdarı dövlət dilinin tam mənimsənilməsini təmin etmir və hesab edirik ki, əlavə saatların verilməsi vacibdir. Seçmə saatlar ləğv edildiyindən Azərbaycan dili seçmə fənn kimi də artıq tədris olunmur. Dərnəklər hesabına isə bu məsələni həll etmək olmaz, çünki bu, şagirdləri kütləvi şəkildə əhatə etmir, həm də bəzən formal xarakter daşıyır.

Milli azlıqların yaşadığı bölgələrdə, o cümlədən şimal bölgəsində Azərbaycan dilinin tədrisində özünü göstərən çətinlik səslərdən, hərflərdən başlayır. Azərbaycan və ləzgi dillərinin ayrı-ayrı dil qruplarına aid olması, fərqli dil tipologiyası, ləzgi dilinə xas spesifik səslərin olması bu çətinliyin əsasını təşkil edir. Dilin təliminə tədrisin ibtidai pilləsindən düzgün yanaşılmasa, sonrakı mərhələdə problemlər daha da dərinləşərək bütövlükdə dilin mənimsənilməsində ciddi çətinliklərə gətirib çıxara bilər.

Səslərin düzgün tələffüzü çox ciddi məqamdır və onların düzgün öyrədilməsi savad təlimi ilə bağlı məsələdir. Bu məsələdə özünü göstərən çətinliklər üzərində konkret nümunələrlə dayanmaq istərdim. Bunu unutmaq olmaz ki, əlifbanı şagirdlərə tələsik öyrətmək olmaz və hər səs, hərf şagirdlərin ana dilindəki səs, hərf qarşılığı ilə müqayisəli şəkildə-müqayisəli nümunələrlə öyrədilməlidir. Belə olarsa təlimin sonrakı mərhələsinə təkan vermiş olarıq. Təbii ki, şagirdlərin ana dilinin səs-hərf sistemində Azərbaycan dilinə müvafiq gələn ümumi məqamlar çoxdur. Bu məqamları şagirdlər asanlıqla dərk edib mənimsəyirlər. Lakin a, ə, e, o, u, ö, ü səslərinin tələffüzündə özünü göstərən səhvlər yazıya da sirayət edir. Belə ki, şagird sözü tələffüz etdiyi şəkildə də yazır. Məsələn, gəlir yox, gelir deyir, elə də yazır. Yaxud Udun (Odun), Ürdək (Ördək) və s. Bu səhvlərin qarşısını almaqda fonetik təhlildən davamlı istifadə də səmərəli nəticə verər. Spesifik səslər üzrə iş çox peşəkar səviyyədə aparılmalıdır-konkret sözlərin tələffüzündə, hətta danışıq üzvlərinin aldığı vəziyyəti də şagirdlərə başa salmaq lazımdır. Məsələn, müəyyən sözlərdə ə səsinin ağızın yarımaçıq vəziyyətində incələşmiş a kimi (Əli, səs, şüşə, ürək), ö səsinin incələşmiş o səsi kimi (Ördək, döşək, döşəmə, söz) tələffüz edildiyi şagirdlərə izah edilməlidir. Əslində bu səslər ləzgi dilində də mövcuddur. Lakin şagirdlər Azərbaycan dilindəki sözlərdə lazımı məqamda bu səsləri ifadə etməkdə çətinlik çəkirlər.

Samitlərin tələffüzündə isə ən böyük çətinlik [K] və [G] səsləri ilə bağlıdır. [K] səsi ilə tələffüz məqamında sözlər [K$^1$] səsi ilə tələffüz edilir. Məsələn; [k$^1$]itab, Ba[k$^1$]I, [K$^1$]amil, [k$^1$]al, [k$^1$]ağız və s.

[G] səsi ilə tələffüz edilməli sözlər [Q] səsi ilə səslənir. Məsələn; [Q]əncə, [q]ül, [q]əmi, [q]urultu, [q]avalı və s.

Bu səslərin ( [K] və [G] ) dil ortasında tələffüz edildiyi və digər fizioloji məqamlar da şagirdə izah edilməli və nümunələrlə ədəbi yazı və tələffüz normativi möhkəmləndirilməlidir. Əks halda, biz şagirdlərdə savadlı yazı və nitq vərdişlərini formalaşdıra və inkişaf etdirə bilmərik. Ümumiyyətlə, çətinlik yaradan konkret səslərin öyrədilməsində bu parametrləri diqqət mərkəzində saxlamaq lazımdır:

- hər bir səsin tələffüzü və yazılışı müqayisəli şəkildə izah edilməlidir (hər iki dil əsasında);
- həmin səslər, hərflər müxtəlif sözlər tərkibində bol-bol işlədilməli, əyani şəkildə nümayiş etdirilməlidir;
- mətnlər üzərində mütəmadi iş aparılmalıdır (səslərə, hərflərə aid sözlər seçilməli, izah edilməli, ən əsası isə oxunmalı, səsləndirilməlidir).

Bu işdə dərsliklə kifayətlənmək olmaz. Mütləq əlavə oxu materiallarına müraciət olunmalı və mətnlər seçilərkən milli-mənəvi dəyərlərimizin, azərbaycançılıq ideyalarının təbliğ olunması diqqətdə saxlanılsa, Azərbaycan dilinin səmərəli təliminə nail olmuş olarıq. Hətta təklif edərdik ki, milli azlıqların yaşadığı bölgələrdə Azərbaycan dilinin tədrisinə daha fərqli və diqqətli yanaşılsın, xüsusi dərsliklər və dilin düzgün işlənilməsində çevikliyin təmin olunması üçün müvafiq internet resursları yaradılsın. Bu resurslar milli azlıqların təhsil aldıqları məktəblərdə Azərbaycan dilinin tədrisi prosesində geniş şəkildə tətbiq olunsun.

Şəxsi təcrübəmdən çıxış edərək deyərdim ki, müxtəlif sənət adamlarının, şairlərin, natiqlərin, qiraətçilərin ifasında səslənən nümunəvi nitqlər, şeirlər həm şagirdlərin bədii zövqünün formalaşmasına, həm də onların düzgün danışmasına, dil və nitq mədəniyyətinin yüksəldilməsinə və inkişaf etdirilməsinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Həmçinin, vaxtaşırı şair və yazıçıların yaradıcılıq gecələrinin, Azərbaycan dili, Azərbaycan əlifbası günlərinin keçirilməsi dilin tədrisi və təbliği istiqamətində effektli vasitələrdən biridir.

Hərtərəfli vətəndaş hazırlığının əsasını həm də dövlət dilini mükəmməl bilən, dövlət dəyərlərini qiymətləndirməyi bacaran bir nəsil yetişdirmək təşkil edir.

**Ülviyyə MUSTAFAYEVA,**
*Qusar şəhər I nömrəli tam orta məktəbin Azərbaycan dili müəllimi*

## Yunus Emre İnstitutunun nümayəndələri türk dili kurslarını tələbələrə təqdim etdilər

Türkiyənin Yunus Emre İnstitutunun nümayəndələri Azərbaycan Memarlıq və İnşaat Universitetində tələbələrlə görüşüblər. İnstitutun müdiri İbrahim Yıldırım tələbələri salamlayaraq rəhbərlik etdiyi qurum barədə məlumat verib. Bildirilib ki, Yunus Emre İnstitutu Türkiyənin tanınmış təhsil ocaqlarından biridir, türk dilini və mədəniyyətini təbliğ edir, dünyanın 46 ölkəsində institutun mərkəzləri fəaliyyət göstərir. 4 ildir ki, Azərbaycanda Türk Mədəniyyət Mərkəzi kimi xidmət göstərdiklərini deyən İ.Yıldırım bu günə qədər 2200 tələbənin onlara müraciət etdiyini qeyd edib. Tələbələrlə görüşlərinin məqsədini açıqlayan qonaq Mövlanə mübadilə proqramları çərçivəsində Türkiyədə təhsil almaq istəyən bakalavr, magistrlər və doktorantlara türk dilini öyrətmək və Türkiyədəki bütün universitetlərdə qəbul olunan TYS (türkcə yeterlik sınavı) sertifikatını əldə etmək istəyənlərə yardımçı olmaq istədiklərini vurğulayıb.

İnstitutun tanıtımı məqsədi ilə hazırlanmış videoçarxın təqdimatından sonra çıxış edən koordinator Əlihsan Çevik bildirib ki, kursu bitirən tələbələrə verilən TYS sertifikatı Türkiyənin bütün universitetlərində keçərlidir. O, dil kursları barədə geniş məlumat verərək qeyd edib ki, kurslarda yazı və qrammatik təlimlər keçirilmir, yalnız şifahi ədəbi dil öyrədilir, tədris prosesində fərqlənən fəal tələbələr pulsuz oxuyurlar. Sınaqlar ildə 3 dəfə - yanvar, may və sentyabr aylarında keçirilir, kurslar 3 aylıqdır.

Görüşün sonunda qonaqlar institutun Bakı şöbəsində keçiriləcək layihələr barədə də tələbələrə məlumatlar veriblər.

**Mətbuat xidməti**

## Təcrübə mübadiləsi aparılıb

Oktyabrın 4-də Azərbaycan Respublikası Təhsil Nazirliyinin Estetik Tərbiyə üzrə Respublika Tədris-Metodik Mərkəzinin Təsviri Sənət Qalereyasında Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin səhnə danışığı kafedrasının müdiri, respublikanın əməkdar artisti, dosent Azad Şükürov və teatr sənəti fakültəsinin dram rejissoru kafedrasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru, bədii qiraətçi Məleykə Məmmədova ilə görüş keçirilib.

Görüşün keçirilməsində məqsəd görkəmli bədii qiraət ustalarının Mərkəz əməkdaşları ilə təcrübə mübadiləsinin aparılması, bədii qiraətin uşaq və gənclərə tədrisini təşkil edən metodistlərin gələcək fəaliyyətinin səviyyəsini daha da yüksəltməkdən ibarət olub.

Görüşdə Mərkəzin direktoru Kəmalə Cəfərzadə və Mərkəzin "Bədii qiraət" dərnəyinin müəllimləri də iştirak ediblər. Bədii qiraət, dram və nitq mədəniyyəti ilə bağlı məsələlərin müzakirəsi zamanı növ və sahələrindən söhbət açılıb, günümüzdə səhnə danışığı kimi dərslərin tədrisinin vacibliyi vurğulanıb.

Azad Şükürov çıxışı zamanı öz yaradıcılıq təcrübəsindən iclas iştirakçılarına bəhs edərək, hazırda bu sahə üzrə tədrisin necə aparıldığından və Mərkəzin "Bədii qiraət" dərnəyinin müəllimlərini tanışlıq və təcrübələrinin artması məqsədi ilə universitetə dəvət edib.

Daha sonra çıxış edən Mərkəzin direktoru Kəmalə Cəfərzadə görüşün əsas məqsədlərindən olan və Estetik Tərbiyə üzrə Respublika Tədris-Metodik Mərkəzi tərəfindən keçiriləcək klassik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi və mütəfəkkiri Nizami Gəncəvinin 875 illik yubileyinə həsr olunan baxış-müsabiqəsindən bəhs edib, bu müsabiqədə nominasiyalar sırasında həmçinin bədii-qiraət nominasiyasının mövcud olduğunu vurğulayıb. Qiymətləndirmə zamanı şagirdlər arasında hansı meyarlara üstünlük veriləcəyi müzakirə olunub.

Daha sonra qonaqlar görüş iştirakçılarının suallarını cavablandırıblar.

Sonda sənətkarların ifasında şeir kompozisiyaları dinlənilib.